# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2016-cı il ərzində fəaliyyətinə dair

# H E S A B A T I

## I. Ümumi hissə

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və onun strukturuna daxil olan gömrük orqanları 2016-cı ildə öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasını, Gömrük Məcəlləsini, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, Komitə sədrinin 30 yanvar 2012-ci il tarixli 01/04 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2012-2016-cı illər üzrə inkişafına dair Fəaliyyət Planı"nı və gömrük işini tənzimləyən digər normativ-hüquqi aktları işdə rəhbər tutaraq tərtib olunmuş iş planı əsasında qurmuşdur.

Hesabat dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərman və sərəncamları əsasında gömrük sistemində əsaslı islahatlar aparılmış, şəffaflığ təmin olunmuş, malların bəyan olunması elektron qaydada həyata keçirilməsi təmin edilmişdir. Bununla yanaşı ötən dövr ərzində milli iqtisadiyyatın stimullaşdırılması, dövlətimizin iqtisadi siyasətindən irəli gələn aidiyyatı vəzifələrin icrası, Azərbaycan Respublikasının gömrük sərhədindən malların və nəqliyyat vasitələrinin keçirilməsi qaydalarına riayət olunmasının təmin edilməsi, ticarət-iqtisadi münasibətlərdə gömrük tənzimlənməsi vasitələrinin tətbiqi, gömrük ödənişlərinin alınaraq dövlət büdcəsinə köçürülməsinin təmin olunması, valyuta nəzarətinin həyata keçirilməsi, iqtisadi təhlükəsizliyin təmin olunması və daxili bazarın qorunması, gömrük nəzarətinin təşkili və möhkəmləndirilməsi, gömrük işi sahəsində cinayətlər və digər hüquqpozmalar ilə mübarizə, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni keçirilməsi hallarının qarşısının alınması, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, infrastrukturun inkişaf etdirilməsi, kadr hazırlığının artırılması, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi sahəsində zəruri işlər görülmüşdür.

İlk növbədə qanunvericilik bazasının təkmilləşdirilməsi prosesinə önəm verərək müvafiq normativ-hüquqi aktların hazırlanması işi davam etdirilmiş və Beynəlxalq Konvensiyaların müddəaları nəzərə alınmaqla, gömrük nəzarəti və rəsmiləşdirilmə prosedurlarının yeni normalara uyğunlaşdırılması, proqressiv gömrük alətlərinin milli səviyyədə istifadə olan qaydalara transformasiya edilməsi, gömrük işinin həyata keçirilməsi məsələlərini tənzimləyən prosedurların daha da rasionallaşdırılması məqsədi ilə bəzi qaydalara əlavələr edilmiş, eləcə də yeni normativ sənədlər hazırlanaraq, müvafiq qaydada təsdiq edilmişdir. Hesabat dövründə aşağıda qeyd olunan gömrük işinə dair müvafiq işlər həyata keçirilmişdir.

## II. Büdcə gəlirləri-xərcləri və maddi-texniki bazanın möhkəmləndirilməsi

Hesabat ilində "Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi üçün 2015-ci il ilə müqayisədə 220 milyon manat və ya 13,8 faiz artımla müəyyən edilmiş 1 milyard 810 milyon manat büdcə proqnozunun bölgüsü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanaraq təsdiq olunmuşdur. İllik büdcə proqnozu Komitə tərəfindən ərazi və ixtisaslaşdırılmış gömrük idarələri arasında bölüşdürülmüş, aylar üzrə yerinə yetirilməsi mütəmadi olaraq nəzarətə götürülmüşdür. 2016-cı il üzrə illik büdcə proqnozu faktiki olaraq 2 milyard 291,6 milyon manat məbləğdə yerinə yetirilmiş, toplanan gömrük vergi və rüsumlarının dövlət büdcəsinə köçürülməsi təmin olunaraq, nəticə etibarı ilə proqnoza 126,6 faiz əməl edilmişdir.

Bununla yanaşı Dövlət Gömrük Komitəsinin struktur bölmələri tərəfindən 2016-cı il ərzində sərhəddə "İcazə" blanklarının verilməsinə görə 13,2 milyon manat məbləğində dövlət rüsumu toplanaraq dövlət büdcəsinə köçürülməsi təmin olunmuşdur.

Eyni zamanda 2016-cı il ərzində Mərkəzi Gömrük Ekspertizası İdarəsinə nəqliyyat vasitələrinə uyğunluq sertifikatının verilməsi üçün olunmuş müraciətlərə əsasən verilmiş uyğunluq sertifikatlarına görə 29,7 min manat həcmində dövlət rüsumu toplanaraq dövlət büdcəsinə köçürülmüşdür.

Gömrük orqanları tərəfindən idxal mallarına tətbiq olunan gömrük vergi və rüsumlarına görə vergi növləri üzrə toplanan gömrük ödənişlərinin dövlət büdcəsinə köçürülməsi barədə məlumatlar mütəmadi olaraq Komitənin rəsmi internet saytına daxil edilmişdir. Dövlət büdcəsinə köçürülmüş vəsaitlər haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə üzləşmə aktı tərtib edilərək təsdiqlənmiş, həmçinin Dövlət Gömrük Komitəsi üzrə büdcə proqnozunun icrası barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə və Azərbaycan Respublikasının Hesablama Palatasına mütəmadi olaraq məlumatlar verilmişdir.

Hesabat ilində 2017-ci il və növbəti üç il üçün proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin layihəsinin hazırlanması məqsədi ilə geniş iqtisadi təhlillər aparılmış və müvafiq təkliflər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilmiş, nəticə etibarı ilə Dövlət Gömrük Komitəsi üçün 2017-ci il üzrə 2 milyard 200 milyon manat həcmində büdcə proqnozu müəyyən edilmişdir.

Komitənin Mərkəzi aparatı və Komitənin strukturuna daxil olan gömrük orqanlarının 2016-cı il üçün büdcə və büdcədənkənar vəsaitlərinin xərc smetaları Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılaraq təsdiq edilmiş, gömrük orqanlarına və aidiyyəti xəzinədarlığa təqdim olunmuşdur.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən kotirovka prosedurları keçirilərək onların yekun protokolları Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinə təqdim edilmişdir.

2016-cı ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin saxlanılması üçün təsnifata uyğun olaraq, xərc maddələri üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən büdcə vəsaiti ayrılmış və xərclənməsinə nəzarət təmin edilmişdir.

Hesabat dövründə Xaçmaz Gömrük İdarəsinin "Yalama" gömrük postunda "HCVT 60-29" tipli rentgen avadanlığında yoxlanan qatarların rejim zonasında tam yerləşməsi üçün rejim

zonası metal karkas quraşdırılaraq metal vərəqlərlə hasarlanmış, ərazi işıqlandırılmış, kamera nəzarəti quraşdırılmış, plastik nəzarət köşkü quraşdırılmış, sərhəd növbəsinin hərəkət zolaqları salınmış və rejim zonası 300 metr uzadılmışdır. Balakən Gömrük İdarəsinin "Mazımçay" gömrük postunun idxal xəttində nəqliyyat vasitələrinin və sərnişinlərin keçidini sürətləndirmək üçün sərnişinlərin və əl yüklərinin yoxlanılması məqsədi ilə xüsusi otaqlar tikilmiş, X-RAY avadanlığı quraşdırılmış, xidməti itlərin sayının artması ilə əlaqədar olaraq əlavə iki itlik saxlanma valyeri tikilmiş, "Muğanlı" gömrük postunda sanitar qovşağı tikilmişdir. "Mazımçay" gömrük postunda avadanlıqların ildırımdan qorunması üçün 4(dörd) ədəd ildırım ötrücü quraşdırılmış, "Mazımçay" gömrük postunun tikililərində, ərazisində və "Muğanlı" gömrük postunun inzibat binasında əsaslı təmir işləri aparılmışdır. Hesabat ilində "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə Azərbaycan Respublikası ilə İran İslam Respublikası dövlət sərhədində Astara çayı üzərində dəmir yolu körpüsü tikintisinin və dəmir yolu xəttinin layihələrində gömrük infrastrukturunun yaradılması üzrə işlər aparılmışdır.

Mütəmadi olaraq gömrük orqanları texniki ləvazimatlar, geyim dəstləri, zəruri avadanlıqlar və inventarlarla təchiz edilmişlər.

### III. Qanunvericiliyin təkmilləşdirilməsi

Hesabat ilində Azərbaycan Respublikasının 19.01.2016-cı il tarixli 106-VQD və 107-VQD nömrəli Qanunları ilə Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanununa müvafiq əlavə və dəyişikliklər edilərək investisiya təşviqi sənədini almış sahibkarlar tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan, 107-VQD nömrəli Qanuna əsasən buğdanın idxalı 2016-cı il yanvar ayının 1-dən 1 il müddətinə ƏDV-dən azad edilmiş, ilin sonunda Vergi Məcəlləsində edilən əlavə dəyişikliklərə əsasən 2017-ci il yanvar ayının 1-dən etibarən buğdanın idxalı növbəti 3 il müddətinə əlavə dəyər vergisindən azad edilmişdir.

Hesabat dövründə Azərbaycan Respublikasının 06.05.2016-cı il tarixli 225-VQD və 226-VQD nömrəli Qanunları ilə "Gömrük tarifi haqqında" Qanuna və Vergi Məcəlləsinə dəyişikliklər edilərək müvafiq icra hakimiyyəti orqanının qərarın əsasən yaradılan sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti tərəfindən müvafiq icra hakimiyəti orqanının təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı 2016-cı il mayın 1-dən 5-il müddətinə əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilmişdir.

Eyni zamanda Azərbaycan Respublikasının 06.05.2016-cı il tarixli 227-VQD nömrəli Qanununu ilə damazlıq heyvanların, toxum və tinglərin, mineral gübrələrin, petisitlərin və Qanunda adı çəkilən bir sıra labaratoriya avadanlıqlarının, baytarlıq peraparatlarının, suvarma qurğularının, xammal və materialların idxalı və satışı əlavə dəyər vergisindən azad olunmuşdur. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 17.05.2016-cı il tarixli 257-VQD Qanunu ilə xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi aşağıdakı qaydada 3 (üç) il müddətinə dövlət rüsumundan azad edilmişdir:

- dəmir yolu ilə nəql edilən yüklər Azərbaycan Respublikası ərazisindəki müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi son dəmir yolu stansiyasında yük avtomobillərinə, qoşqulu

və yarımqoşqulu avtonəqliyyat vasitələrinə aşırılaraq ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə digər dövlətə daşındıqda;

- yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri ilə yüklər digər dövlətin ərazisindən Azərbaycan Respublikası ərazisindəki müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi ilk dəmir yolu stansiyasına ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirilməklə daşındıqda.

Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 31 avqust 324 saylı qərarına uyğun olaraq Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təsdiqedici sənədinə əsasən, "DVB-T və DVB-T2 standartına uyğun rəqəmli televiziya yayımı üçün avadanlıqlar və onlara aid ötürücü anten fider sistemləri", eyni zamanda Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 07 dekabr 494 saylı qərarına uyğun olaraq Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təsdiqedici sənədinə əsasən həmçinin "rəqəmli qəbuledici (çevirici) qurğuları" gömrük rüsumundan azad edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş qaydaları"nda dəyişikliklər edilməsi haqqında qərar layihəsi hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 8 iyul 2016-ci il tarixli 267 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nda dəyişikliklər edilməsi haqqında qərar layihəsi hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 8 iyul 2016-ci il tarixli 268 nömrəli Qərarı qüvvəyə minmişdir.

"Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nomrəli Fərmanı ilə təsdiq edilmiş "Giriş-cıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə" də dəyişikliklər edilməsi barədə" fərman layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 21 may 2016-cı il tarixli 918 nömrəli Fərmanı və 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında" Əsasnamə"də dəyişikliklər edilməsi barədə fərman layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 21 may 2016-cı il tarixli 919 nömrəli Fərmanı qüvvəyə minmişdir. Və icrasına başlanılmışdır.

Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin mükafatlandırılmasının növləri və

qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihələri Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Qanunvericilik aktlarının “Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydalan”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanına uyğunlaşdırılması məqsədilə “Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 7 nömrəli 12 yanvar 2013-cü il tarixli qərarı ilə təsdiq edilmiş “Gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli qərarı ilə təsdiq edilmiş “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı layihələri hazırlanmış və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Aidiyyəti qurumlarla razılaşdırılmış “Sərhəd qoşunları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu layihəsi, “Azərbaycan Respublikasının dövlət sərhədi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 9 mart tarixli, 140 nömrəli Qərarı ilə təsdiq edimiş “Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrində sərhəd qoşunlarının nəzarət-buraxılış məntəqələri haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihələri Azərbaycan Respublikasının Prezidentinə və eyni zamanda Azərbaycan Respublikasının Prezidentinin İqtisadi İslahatlar üzrə köməkçisinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 926 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası qanunlarının, ölkə Prezidentinin aktlarının və Nazirlər Kabinetinin qərarlarının, həmçinin mərkəzi icra hakimiyyəti orqanlarının müvafiq normativ hüquqi aktları və normativ xarakterli aktlarının “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” 2016-ci il 6 may tarixli 225-VQD nömrəli Qanuna uyğunlaşdırılması məqsədilə Komitə tərəfindən hazırlanmış “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərar layihəsi hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Eyni zamanda, Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nomrəli qərarında dəyişikliklər edilməsi barədə 23 sentyabr 2016-cı il tarixli 367 nömrəli qərarı qüvvəyə minmiş və qərarda qeyd edilən mallara müəyyən edilmiş hədlərdə idxal zamanı spesifik gömrük rüsumlarının tətbiqinə başlanılmışdır.

Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə 05 oktyabr 2016-cı il tarixli 379 nömrəli qərarı qüvvəyə minmiş və qərarda göstərilən mallara müəyyən edilmiş hədlərdə ixrac gömrük rüsumunun tətbiqinə başlanılmışdır.

Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla “Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası”nın, “İxrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı”nın və “Məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq Əmsallar”ın təsdiq edilməsinə dair Nazirlər Kabinetinin 6 oktyabr 2016-cı il tarixli 401 saylı qərarı qüvvəyə minmişdir.

Həmçinin, Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təkliflər nəzərə alınmaqla “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə Gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nomrəli qərarında dəyişikliklər edilməsi barədə 02 avqust 2016-cı il tarixli 290 nömrəli qərarı qüvvəyə minmiş və qərarda qeyd edilən bir sıra mallara müəyyən edilmiş hədlərdə ixrac gömrük rüsumunun tətbiqinə başlanılmışdır.

“Gömrük ödənişlərinin operativ surətdə büdcə təsnifatına uyğun olaraq aidiyyəti üzrə dövlət büdcəsinə və Azərbaycan Respublikasının gömrük sisteminin büdcədənkənar inkişaf fonduna köçürülməsinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 31.03.2016-cı il tarixli 100/064 saylı Sərəncamı təsdiq edilmişdir.

Həmçinin ötən il ərzində “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanının 6.7-ci bəndinin və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2014-cü il 2 sentyabr tarixli 100/03/002 nömrəli qərarı ilə təsdiq edilmiş “Gətirilməsi (aparılması) qadağan olunmuş və ya məhdudlaşdırılmış malların götürülməsi haqqında” Protokolun forması”nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2016-cı il 13 dekabr tarixli 100/04/001 nömrəli qərarı və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2014-cü il 22 iyul tarixli 100/02/004 nömrəli qərarı ilə təsdiq edilmiş “Ümumdünya Poçt İttifaqının Aktlarında nəzərdə tutulmuş sənədlərlə müşayiət olunan beynəlxalq poçt göndərişləri ilə göndərilən malların gömrük rəsmiləşdirilməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2016-cı il 13 dekabr tarixli 100/04/002 nömrəli qərarı “Normativ hüquqi aktlar haqqında” Qanuna uyğun olaraq Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmuşdur.

2016-ci ildə Komitə tərəfindən aidiyyəti üzrə bir sıra normativ-hüquqi aktlar hazırlanımış və icrasına başlanılmışdır.

Belə ki, “Gömrük bəyannamələrinin doldurulması qaydalarının metodikalarının və metodiki tövsiyyələrinin təsdiq edilməsi haqqında” 31.10.2014-cü il tarixli 100/143 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Gömrük bəyannamələrinin doldurulması qaydasının Metodikası”nın “Gömrük ödənişləri üzrə imtiyazların Təsnifatı” adlı 14 saylı əlavəsində əlavə və dəyişikliklərin edilməsi

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 11.03.2016-cı il tarixli 100/049 saylı Sərəncamı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının gömrük ərazisindən dəmir yolu nəqliyyatı ilə daşınan malların beynəlxalq tranzit gömrük proseduru altında yerləşdirilməsinə icazə verilməsi işinin daha da sürətləndirilməsi, gömrük sərhədindən keçirilən malların gömrük rəsmiləşdirilməsinin tezləşdirilməsi, gömrük nəzarəti üçün tələb olunan sənədlərin yoxlanılması üzrə səmərəliliyin artırılması məqsədilə “Dəmir yolu nəqliyyatı ilə gömrük sərhədindən malların beynəlxalq tranzit xüsusi gömrük prosedurunda keçirilməsi üzrə tələblər” Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 01.02.2016-cı il tarixli 100/018 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan hissəsində gömrük orqanlarının qarşısında müəyyən olunmuş vəzifələrin yerinə yetirilməsi işinin daha da gücləndirilməsi, gömrük sərhədindən keçən üzən nəqliyyat vasitələrinin gömrük qaydalarına riayət olunmasına nəzarətin artırılması, dəniz və sahilboyu ərazilərdə gömrük nəzarətinin artırılması, dəniz və sahilboyu ərazilərdə gömrük nəzarətinin operativliyinin təmin edilməsi məqsədilə “Xəzər dənizində işçi qayıqlarda keşik çəkmə (partulluq) və gömrük müşahidəsinin aparılması üzrə marşrut tapşırığının tərtibatına dair Tələblər” işlənib hazırlanmış və Dövlət Gömrük Komitəsinin 30 mart 2016-cı il tarixli, 100/060 nömrəli sərəncamı qüvvəyə minmişdir.

“Fiziki şəxslər tərəfindən təyinatı istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan hesab edilmiş və güzəştli qaydada (gömrük ödənişlərini ödəmədən) gömrük ərazisinə gətirilən malların uçotunun aparılmasını tənzimləyən Texnoloji Sxem” işlənib hazırlanmış və Dövlət Gömrük Komitəsinin 17 noyabr 2016-cı il tarixli, 100/193 nömrəli sərəncamı ilə qüvvəyə minmişdir.

“Azərbaycan Respublikasının gömrük sərhədindən müvəqqəti keçirilən mal və nəqliyyat vasitələrinin müəyyən edilmiş müddət ərzində geri qaytarılmasına gömrük orqanları tərəfindən nəzarətin həyata keçirilməsini tənzimləyən Texnoloji Sxem” işlənib hazırlanmış və Dövlət Gömrük Komitəsinin 17 noyabr 2016-cı il tarixli, 100/194 nömrəli sərəncamı ilə qüvvəyə minmişdir.

“Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında” Əsasnamə hazırlanmış və Dövlət Gömrük Komitəsinin 21 noyabr 2016-cı il tarixli, 100/197 nömrəli sərəncamı ilə qüvvəyə minmişdir.

“Gömrük sərhədindən keçirilən, hava gəmilərinin istismarı üçün zəruri olan ehtiyyatlar hesab olunan malların bəyan edilməsinə dair Metodiki Tövsiyə” işlənib hazırlanmış və Dövlət Gömrük Komitəsinin 19 dekabr 2016-cı il tarixli, 100/221 nömrəli sərəncamı ilə qüvvəyə minmişdir.

“Malların mənşəyinin elektron sertifikatlaşdırılması sisteminin yaradılması və təbiqi barədə” Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 11.03.2016-cı il tarixli 100/050 saylı Sərəncamı ilə təsdiq edilmişdir.

İctimaiyyəti gömrük işi sahəsində qüvvədə olan qanunvericilik aktları ilə daha operativ surətdə məlumatlandırmaq məqsədi ilə yeni qəbul edilmiş normativ-hüquqi aktların Komitənin internet saytında yerləşdirilməsi təmin edilmişdir.

## IV. Tarif tənzimlənməsi və valyuta nəzarəti

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına əsasən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə (VAİS)

gömrük rüsumları və Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası üzrə müvafiq əlavə və dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikası Xarici İqtisadi Mal Nomenklaturası Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonik Sistemin 2017-ci il variantına uyğunlaşdırılması məqsədilə Ümumdünya Gömrük Təşkilatı tərəfindən hazırlanmış yeni layihənin təsdiq olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

2016-cı ildə fiziki şəxslər və müvəkkil banklar tərəfindən Azərbaycan Respublikasının gömrük sərhəd buraxılış məntəqələrindən valyuta sərvətlərinin keçirilməsinə nəzarət edilmişdir.

Hesabat dövrü ərzində "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) siyahısı" na edilən dəyişikliklər barədə məlumatlar aidiyyəti üzrə gömrük sərhəd buraxılış orqanlarına göndərilmiş və müvafiq olaraq yerli gömrük orqanları tərəfindən zəruri məlumatların Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Maliyyə Monitorinqi Xidmətinə həmçinin fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin gömrük sərhəd buraxılış məntəqələrindən keçirilməsi barədə aidiyyəti məlumatlar qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının Mərkəzi Bankına göndərilmişdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və digər dövlət orqanları ilə əməkdaşlıq davam etdirilmiş, həmin orqanlardan alınan qiymət məlumatları, habelə respublikanın istehlak bazarında qiymət səviyyələrinin dəyişilməsinə müvafiq olaraq idxalda mühüm əhəmiyyət kəsb edən malların orta bazar topdansatış, habelə pərakəndə satış qiymətləri üzərində müşahidələrin aparılması və nəticələrinin təhlil edilməsi təşkil olunmuş, beləliklə istehlak bazarında qiymətlərin səviyyəsi üzərində daim monitorinq aparılmışdır.

2016-cı il ərzində neft konsorsiumları ilə işləyən şirkətlərin müraciətlərinə əsasən "Hasilatın Pay Bölgüsü haqqında" Sazişlər üzrə işləyən podratçı və subpodratçı şirkətlərə "İdxal-ixrac rüsum və vergilərindən azad olma haqqında" sertifikatlar təqdim olunmuşdur.

Qeyd edək ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" 20 oktyabr 2015-ci il tarixli Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq audit yoxlamaları 01.11.2015-ci il tarixdən etibarən iki il müddətinə dayandırılmışdır.

## V. Gömrük nəzarətinin təşkili

2016-cı il ərzində gömrük nəzarətinin həyata keçirilməsi «bir pəncərə» prinsipinə uyğun olaraq təmin edilmişdir.

Ərazi və ixtisaslaşmış gömrük idarələrində istismarda olan texniki nəzarət vasitələrinin səmərəli istifadə edilməsi və malların gömrük sərhədindən sürətlə keçidi işi təşkil edilmiş, il ərzində mövcud olan texniki nəzarət vasitələrində yaranmış müxtəlif nasazlıqlar və çatışmamazlıqlar barədə məlumatlara dərhal reaksiya verilmiş, mövcud sahələr üzrə aidiyyəti mütəxəssislər dəvət edilməklə həmin çatışmamazlıqlar operativ surətdə aradan qaldırılmışdır.

2016-cı il ərzində iki gömrük orqanı arasında daşınan malların və nəqliyyat vasitələrinin mexaniki-elektron kilidlərlə bağlanaraq təyinat gömrük orqanına göndərilməsi işi Vahid

Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) vasitəsi ilə həyata keçirilmişdir. Hesabat dövründə Mobil gömrük bölmələri tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisində iki gömrük orqanı arasında yük daşıyan 131955-dən artıq nəqliyyat vasitəsinin üzərinə mexaniki-elektron kilid (GPS) bağlanaraq təyinat yerinə çatdırılmışdır. Həmin nəqliyyat vasitələrinin müəyyən olunmuş marşrut xətti üzrə hərəkəti Komitənin Mərkəzinin əməkdaşları tərəfindən "GPS monitorinq" sistemi vasitəsi ilə müntəzəm olaraq müşahidə altında saxlanılmış, marşrutdan çıxma və digər pozuntu hallarının qarşısı operativ şəkildə alınmışdır. Belə ki, avtomobillərlə və texniki nəzarət vasitələri ilə təmin olunmuş əməkdaşlar Hədəf Mərkəzindən verilən məlumatlar əsasında marşrut xəttindən çıxan və ya müəyyən olunmamış yerlərdə uzun müddət ərzində dayanan nəqliyyat vasitələrinin dayanmalarının səbəblərini araşdıraraq müvafiq tədbirlər həyata keçirmişlər. Hesabat dövründə Hədəf Mərkəzi tərəfindən 518 yük avtomobilinin marşrutdan çıxması faktı aşkarlanmış və gömrük nəzarəti altında olan 19 yük avtomobili isə səbəbsiz marşrut xəttindən çıxdığına görə İnzibati Xətalar Məcəlləsinin 487-ci maddəsinə uyğun olaraq aidiyyəti üzrə cərimə tətbiq olunmuşdur.

Qeyd edək ki, Beynəlxalq müqavilələrlə müəyyən edilmiş ekvivalent prinsipinə uyğun olaraq ixracatçı ölkə tərəfindən əvvəlcədən verilən baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikat (şəhadətnamə), nümunələrin gömrük orqanlarına təqdim edilməsi üçün Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Baytarlıq Nəzarəti və Dövlət Fitosanitar Nəzarəti Xidməti və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Sanitariya-Karantin Müfəttişliyinin səlahiyyətli nümayəndələri ilə keçirilmiş işçi görüşün nəticəsi olaraq ixracatçı ölkə tərəfindən əvvəlcədən verilən baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikat (şəhadətnamə), nümunələr haqqında məlumatlar Dövlət Gömrük Komitəsinə daxil olmuşdur. Bununla əlaqədar olaraq eyniləşdirmə işinin təkmilləşdirilməsi məqsədilə ixracatçı ölkələr tərəfindən baytarlıq, fitosanitar və sanitariya nəzarətində olan yüklərə əvvəlcədən verilən sənəd nümunələrinin (sertifikat və s.), o cümlədən ölkələr haqqında dəyişən məlumatların və Azərbaycan Respublikasının 2002-ci il 12 fevral tarixli 257-IIQ nömrəli qanunu ilə təsdiq edilmiş "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında" Sazişin surəti və Avropa İttifaqının sağlamlıq sertifikatlarının nümunələri xidməti istifadə üçün VAİS-də "Əməkdaşlıq" blokunda "İmza, möhür və sertifikat nümunələri" bölməsində yerləşdirilmiş, qeyd olunan məlumatlarla ərazi və ixtisaslaşdırılmış gömrük idarələrinin təmin edilməsi üçün müvafiq tədbirlər görülmüş, ortaya çıxacaq məsələlərin həlli üçün tədbirlər həyata keçirilməkdədir.

Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində, digər çay və göl hövzələrində bioloji sərvətlərin qorunması məqsədi ilə balıq ovunda istifadə olunan sintetik monosaplardan əllə və ya maşınla toxunmuş hazır ilgəkli balıq ovu torlarının, su bioresursların ovlanması funksiyasını yerinə yetirən elektrik ovlama sistemləri və siqnalların elektrik generatoru, keçiricilər və akkumulyatordan (batareya) ibarət olan qurğuların ölkə ərazisinə gətirilməsinin qadağan olunmasına dair "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 31.08.2015-ci il tarixli, 1378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında müəyyən növ mallara münasibətdə gömrük nəzarətinin nəticələrinin qarşılıqlı tanınması haqqında Protokol"un müddəalarının icrası ilə

əlaqədar, həmin Protokola əlavə edilmiş manifest formasının həm elektron, həm də kağız üzərində yazılı formada tətbiq edilməsinə başlanılmışdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dövlət Dəniz Akademiyası arasında müqavilə bağlanmış, işçi qayıqlarda funksiyalarını dəniz və sahilboyu ərazilərində həyata keçirilməsi üçün həmin qayıqlarda xidmət edən kapitan, kapitan köməkçisi, mexanik, elektrik mexanik və gömrük əməkdaşlarına müvafiq kurslar keçirilmiş və sertifikatların (diplomlar) alınması təmin olunmuşdur.

Qeyd edilənlərlə yanaşı Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyaları Nazirliyinin Dövlət Radio Tezliklər və Rabitə Avadanlıqları İdarəsindən işçi qayıqların üzərində qurulmuş rabitə avadanlıqları üçün lisenziyalar alınmışdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Xəzər Hövzə Qəza-xilasetmə Xidməti arasında işçi qayıqların mövcud olan xilasetmə avadanlıqlarının yoxlanılması və sertifikatlarla təmin olunması məqsədilə müqavilə bağlanmış, işlər başa çatdırılmış və avadanlıqlara müvafiq sertifikatlar alınmışdır.

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin müvafiq məktublarında ölkə ərazisinə adları qeyd olunan dövlətlərdən malların idxalı zamanı keçə biləcək yoluxucu xəstəliklərdən qorunması məqsədilə gömrük orqanlarının səlahiyyətləri çərçivəsində aidiyyəti üzrə qabaqlayıcı profilaktik tədbirlərin görülməsi və qanunvericiliklə tələb olunan sənədlərin mövcudluğuna dair nəzarətin bir daha gücləndirilməsi ilə bağlı sərhəd gömrük orqanlarına göstəriş məktubu göndərilmişdir.

Həmçinin, "Azərbaycan Respublikası ərazisində radiasiya təhlükəsizliyinə nəzarəti gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 iyul 1997-ci il tarixli 76 nömrəli Qərarına əsasən Dövlət Gömrük Komitəsinin struktur bölmələrinin balansında olan radioaktiv mənbəli avadanlıqlar, baxış-rentgen texnikaları və yoxlama baxış sistemləri, habelə digər ionlaşdırıcı şüa mənbəli cihazlar haqqında 2015-ci il üçün məlumatlar (inventarlaşma aktları) Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətinin Tənzimlənməsi üzrə Agentliyinə təqdim edilmişdir.

2017-ci ilin may ayında keçirilməsi planlaşdırılan IV İslam Həmrəyliyi Oyunları ilə əlaqədar Azərbaycan İslam Oyunları Əməliyyat Komitəsi tərəfindən ölkə ərazisinə gətirilən malların və nəqliyyat vasitələrinin gömrük tənzimlənməsi qaydaları barədə maraqlı tərəflərin (idmançılar, əlaqədar təşkilatlarlar və.s) məlumatlandırılması məqsədilə "Gömrük və Daşınma məsələləri" mövzusunda hazırlanmış bələdçiyə müvafiq qaydada dəyişikliklər edilmişdir.

BYD kitabçalarından istifadə etməklə beynəlxalq yük daşımalarının həyata keçirilməsi üçün 5 hüquqi və 6 fiziki şəxslərə icazələr verilmiş, 2 hüquqi və 1 fiziki şəxslərin icazələri ləğv olunmuşdur.

Azərbaycan Respublikasına müvəqqəti gələn nəqliyyat vasitələrinin respublika ərazisində qalma müddətinin "Asan Xidmət" mərkəzlərində artırılmasına dair müvafiq işlər görülmüş və müvəqqəti idxal xüsusi gömrük proseduru altında fiziki şəxslərə məxsus nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi həyata keçirilir.

Hesabat dövründə Xaçmaz Gömrük İdarəsinin Yalama və Samur sərhəd keçid məntəqələrində, Balakən Gömrük İdarəsinin Mazımçay sərhəd keçid məntəqəsində, Tovuz Gömrük İdarəsinin Sınıq Körpü və Böyük Kəsik sərhəd keçid məntəqələrində və Bikləsuvar Gömrük İdarəsinin Qoşa Təpə sərhəd keçid məntəqəsində GMO labaratoriyaları yaradılmışdır. Hal-hazırda Respublika ərazisinə idxal olunan yeyinti məhsullarında, toxumlar və başqa əkin

matareaillarında GMO elementlərinin aşkar edilməsi üzrə ekspertizalar aparılır.2016-cı il ərzində 3500 (üç min beş yüz) nümunənin tərkibində GMO analizləri aparılmışdır.

2016-cı ildə Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 322-ci maddəsinin məqsədləri üzrə 72954 müxtəlif sınaq və analizlər aparılmış, onlardan 2979-u nəqliyyat vasitələrinin sınağı ilə bağlı olmuşdur. Eyni zamanda müraciətlər əsasında mallara 4086 faktiki baxış keçirilmişdir.

Qeyd edək ki, gömrük sərhəd buraxılış məntəqələrindən VAİS vasitəsilə daxil olmuş pestisid yükünün bitki mühafizəsi vasıtəsinə aidiyyəti, nəqliyyat vasitələrinin Avro-4 standarta uyğunluğu, malların ixrac nəzarətinə düşüb-düşməməsi, GMO mallar haqqında və s. sorğuların operativ cavablandırılması üçün 24 saatlıq rejimdə növbətçilik sistemi təşkil olunmuş və il ərzində VAİS vasitəsi ilə daxil olan 2201sorğu cavablandırılmışdır.

Hesabat dövründə pestisidlərin eyniləşdirilməsi məqsədilə ekspertizalar aparılmışdır və nəticədə 5 (beş) halda 61 (altımış bir) adda pestisidlərin idxalının "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin qeydiyyat haqqında şəhadətnamə"si olmadığı aşkarlanmış və nəticə etibarı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 saylı 22.01.2007-ci il tarixli Qərarına zidd olduğu müəyyən edilmişdir.

Komitənin Mərkəzi Gömrük Ekspertizası İdarəsinin nəzdində yaradılmış "Azərbaycan Respublikası ərazisində dövriyyəyə buraxılan avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblər əsasında avtonəqliyyat vasitələrinin uyğunluğunun və tipinin təsdiqi üzrə sertifikatlaşdırılması üzrə Orqanı" tərəfindən ölkə ərazisinə daxil olan nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi və qeydiyyata alınması üçün Avro 4 ekoloji standartlarına uyğunluğu yoxlanılması məqsədilə 3022 (üç min iyirmi iki) müraciət olmuş və nəticədə 1472 (min dörd yüz yetmiş iki) ədəd uyğunluq sertifikatları və 1351 (min üç yüz əlli bir) müsbət rəy verilmişdir. Yoxlamalar nəticəsində 12 (on iki) nəqliyyat vasitəsinin Avro-4 ekoloji standartına uyğun olmadığı müəyyən olunmuşdur və ölkə ərazisinə buraxılmamışdır. Araşdırma zamanı 187 (yüz səksən yeddi) nəqliyyat vasitəsinə isə uyğunluq sertifikatı verilmişdir.

## VI. Gömrük işi sahəsində hüquqpozmalara qarşı mübarizə tədbirləri

2016-cı ildə Azərbaycan Respublikası gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti əsasən qabaqcıl dünya təcrübəsinə əsaslanan metodların, o cümlədən, texniki vasitə və informasiya texnologiyalarının tətbiqi, əməliyyat-axtarış və qabaqlayıcı-profilaktik tədbirlərin gücləndirilməsi, habelə hüquqpozmalara qarşı mübarizədə əməkdaşlığın genişləndirilməsi yolu ilə Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, qaçaqmalçılıq kanallarının aşkar və ləğv olunmasına, hüquqpozma törətmiş şəxslərin müvafiq məsuliyyətə cəlb edilməsinə yönəlmişdir.

Qaçaqmalçılığa və digər gömrük hüquqpozmalarına qarşı mübarizənin səmərəliliyinin artırılmasında beynəlxalq və regional əməkdaşlığın xüsusi əhəmiyyəti nəzərə alınmaqla, 2016-cı ildə ÜGT, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, GUAM, MARİƏM (Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzi) kimi mötəbər beynəlxalq və regional təşkilatlarla, xarici gömrük xidmətlərinin hüquq mühafizə bölmələri ilə ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi işi davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli 2966 saylı Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın icrasını təmin etmək və gömruk sərhədindən narkotiklərin qanunsuz keçirilməsinin

qarşısını almaq məqsədilə gömrük orqanları tərəfindən (o cümlədən, digər hüquq-mühafizə orqanları ilə birlikdə) görülmüş qətiyyətli tədbirlər nəticəsində 2016-cı il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 130 fakt aşkar olunmuşdur. Bu faktlar üzrə ümumilikdə 1 ton 136 kq 153 qram narkotik vasitə və psixotrop maddələr, o cümlədən 1 ton 113 kq 998 qram heroin, 6 kq 789 qram tiryək, 3 kq 881 qram marixuana, 11 kq 324 qram həşiş, 30,697 qram metadon, 2,224 qram və 50 həb alprazolam, 40 qram fenobarbital, 51,443 qram metamfetamin, 4,658 qram və 100 həb klonazepam, 6,212 qram tenamfetamin, 1,83 qram amfetamin, 0,95 qram və 8 həb MDMA (ekstazi) və digər maddələr qanunsuz dövriyyədən çıxarılmışdır.

2016-cı il ərzində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 162 nəfər: 143-i kişi və 19-u qadın olmaqla 122 Azərbaycan vətəndaşı və 40 əcnəbi (30 İran, 2 Rusiya, 2 Türkiyə, 2 Belarus, 1 Gürcüstan, 1 Hindistan, 1 Pakistan və 1 Tacikstan vətəndaşı) barəsində müvafiq tədbirlər görülmüş, 29 halda bu əməlləri törədən cinayətkar dəstə ifşa edilmişdir.

109 halda narkotiklər İrandan, 5 halda Rusiyadan, 4 halda Türkiyədən, 1 halda Kanadadan, 1 halda İsraildən, 1 halda Gürcüstandan gətirilərkən, 1 halda Rusiyaya, 1 halda Gürcüstana, 1 halda İrana aparılarkən, 5 halda isə tranzit yolla (İran-Azərbaycan-Almaniya, İran-Azərbaycan-Ukrayna, İran-Azərbaycan-Gürcüstan-Ukrayna, İran-Azərbaycan-Belçika, İran-Azərbaycan-Gürcüstan marşrutları üzrə) keçirilərkən saxlanmışdır.

Narkotiklərin qanunsuz keçirilməsi məqsədilə narkoqaçaqmalçılar müxtəlif gizlətmə üsullarından istifadə etmişlər. 2016-cı il ərzində 39 halda narkotik vasitələrin daxili bədən boşluqlarında (mədədə, düz bağırsaqda və s.) keçirilməsinə cəhdin qarşısı alınmışdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzi tərəfindən təlimləndirilmiş narkotik vasitələrin, partlayıcı maddələrin, silah-sursat, tütün məmulatlarının və digər fərdi iyə malik olan əşyaların (pirotexniki vasitələrin) axtarışı üzrə 48 baş xidməti it sərhəd-buraxılış məntəqələrində gündəlik fəaliyyət göstərmişdir.

15.12.2015-cı il tarixdən 05.05.2016-ci il tarixinədək Dövlət Təhlükəsizlik Xidmətinin Xüsusi Əməliyyatlar Baş idarəsinin iki nəfər əməkdaşı iki baş xidməti itləri ilə birlikdə Mərkəzin bazasında narkotik vasitələrin axtarışı və hücüm mühafizə xidməti üzrə təlim məşqlər keçmişdir.

25.11.2015-ci il tarixdən 15.02.2016-ci il tarixinədək Gürcüstan Respublikasının Gəlirlər İdarəsinin sərhəd nəzarət qurumunun 3 nəfər kinoloqu xidməti itləri ilə birlikdə Mərkəzin bazasında narkotik vasitələrin axtarışı üzrə təlimlər keçmişdir. Həmçinin Gürcüstan Respublikasının Gəlirlər idarəsinin sərhəd nəzarət qurumuna iki baş təlim keçmiş xidməti axtarış itləri də Mərkəz tərəfindən təhvil verilmişdir.

2016-cı ilin oktyabr ayının 15-dən 30-dək Seneqal Respublikası Baş Gömrük İdarəsinin 4 nəfər əməkdaşı Kinoloji Mərkəzin bazasında narkotik vasitələrin axtarışı üzrə 15 gün müddətində təlim kursları keçmişdir.

Təlim kursları bitdikdən sonra Seneqal Respublikası Baş Gömrük İdarəsinin əməkdaşlarına narkotik vasitələrin axtarışı üzrə 2 baş xidməti it təhvil verilmişdir.

Hesabat dövründə xidməti axtarış itlərin tətbiqi nəticəsində 28 fakt üzrə 2004 qram həşiş, 9,07 qram tiryək, 330 qram heroin, 755,8 qram marixuana, 100 ml metadon, 160 həb metadon, 10,14 qram metamfetamin, 12 ədəd buprenofin, 50 ədəd mudrax tropikamid, 1000 ədəd alprazolam aşkar olunmuşdur. Bundan əlavə xidməti itlərin tətbiqi zamanı 529800 ədəd müxtəlif markalı siqaretlər, 29046 ədəd pirotexniki vasitələr, 0,564 kq qızıl və 13,500 kq gümüş zinət əşyaları aşkar edilmişdir.

2016-cı ildə gömrük orqanları tərəfindən qaçaqmalçılığın predmeti kimi 78,900 qram preqabalin, 14 konvolyut və 574,500 qram tramadol, 105,800 qram tropikamid adlı güclü təsiredici maddələr qanunsuz dövriyyədən çıxarılmışdır.

2016-cı il ərzində Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunmuş 8503 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 202 hüquqi şəxs (o cümlədən 101 xarici hüquqi şəxs) və 8314 fiziki şəxs (o cümlədən 4533 xarici) inzibati məsuliyyətə cəlb edilmiş, göstərilən şəxslərə qarşı 673 min 591 manat cərimə tətbiq olunmaqla, dəyəri 354 min manat olan mallar müsadirə edilmişdir.

Gömrük qaydaları əleyhinə inzibati xətalar əsasən malların, nəqliyyat vasitələrinin və ya onlara aid sənədlərin müəyyən edilmiş müddətdə çatdırılmaması, gömrük sərhədindən gömrük nəzarətindən gizli və kənar keçirilməsi, bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi, onların gömrük ərazisindən kənara aparılmaması, gömrük ödənişlərinin ödənilməsindən yayınma ilə əlaqədar olmuşdur.

“Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına əsasən gömrük orqanları valyuta və valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 1623124 ABŞ dolları, 52000 avro, 31407247 rus rublu, 156628 Azərbaycan manatı, 990345 manat dəyərində 22471 qram qızıl, 446267 manat dəyərində zinət əşyaları, 60005 manat dəyərində gümüş əşyalar, 1326 manat dəyərində 7,614 karat qiymətli daşlar, 2445 manat dəyərində 198,670 qram qiymətli metallar aşkar olunmuşdur.

Bundan əlavə hesabat dövründə gömrük orqanları tərəfindən 725 qram civə, 20 litr kimyəvi prekursorlar, 493133 ədəd petarda və digər pirotexnika məhsulları, 7526143 ədəd aksiz markaları, 20 kq-a yaxın kürü məhsulları, 82288 manat dəyərində dərman vasitələri, 7940 manat dəyərində baytarlıq dərmanları, 18 ədəd elektroşoker, 8340 manat dəyərində kürü, 1498 ədəd mobil telefon və 9264 ədəd mobil telefonların digər aksessuarları, 112 ədəd mobil telefonların ehtiyat hissələri, 84632 manat dəyərində 7174 ədəd məişət texnikası, 22 kq partlayıcı maddələr, 1 ədəd odlu silah, 26 ədəd odlu silahın patronu, 113 ədəd ov silahının sursat və ləvazimatları, 11 ədəd pnevmatik silah və 1800 ədəd pnevmatik silahın patronları, 25 ədəd qaz silahının patronları, 69 ədəd soyuq silah, 67 ədəd səs-siqnal patronları, 159922 manat dəyərində 5641 ədəd kosmetika və külli miqdarda digər mallar tutulmuşdur.

Hesabat dövründə gömrük orqanları tərəfindən saxta və ya keyfiyyətsiz mallarla mübarizə sahəsində 21 ədəd adapter, 20 ədəd “İphone S”, 5 ədəd “İphone”, 7 ədəd “İphone 6S”, 1 ədəd “Vertu”, 1 ədəd “Samsung Galaxy J5”, 6 ədəd “İphone 5S”, 5 ədəd “HTC G300”, 1 ədəd “HTC H2” 1 ədəd “Nokia 6700” markalı mobil telefonlar, 2080 ədəd plastik flakonda “Mudrax 1% Tropicamide” və hər konvalyutda 14 kapsul olmaqla cəmi 900 konvalyut “Lyrıca 300 mg” adlı dərman preparatları, 20000 ədəd geyim paltarlarına yapışdırılması üçün nəzərdə tutulan saxta yarlıklar (etketlər), 96 litr alkoqollu içkilər, 38060 ədəd “NZ Gold Compact” markalı siqaretlər aşkar edilərək hüquqpozmanın predmeti kimi götürülmüşdür.

Ötən il ərzində gömrük orqanları tərəfindən alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatlarının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması hallarının qarşısının alınması üçün qəti tədbirlər görülmüş, aksiz markasız və ya digər qanunsuz yollarla ölkəyə gətirilməsinə cəhd göstərilən 551424 manat dəyərində 5921712 ədəd xaricdə istehsal olunan siqaret, 3550 ədəd siqar, 30579 manat dəyərində 1812 litr və 2989 ədəd spirtli içki saxlanılmışdır.

2016-cı ilin yanvar-dekabr aylarında Komitənin İstintaq İdarəsinin əməkdaşlarının icraatında cəmi 439 cinayət işi olmuşdur ki, həmin cinayət işlərindən 283-ü il ərzində başlanmış, 83-ü əvvəlki ildən qalıq qalmış, 41-i başqa cinayət işlərindən ayrılmış, 27-nin icraatı təzələnmiş, 5-i isə digər orqanlardan daxil olmuşdur.

Ötən dövr ərzində icraatda olmuş cinayət işlərinin böyük əksəriyyəti az ağır cinayət faktlarına görə başlanmışdır.

Hesabat ili ərzində İstintaq İdarəsinin icraatında olmuş 439 cinayət işindən 227-si ittiham aktları ilə baxılması üçün məhkəmlərə göndərilmiş, 81-nin icraatı dayandırılmış, 34-nün icraatına xitam verilmiş, 7-si digər cinayət işlərinə birləşdirilmiş, 6-sı üzrə istintaq aidiyyəti üzrə göndərilmiş, 82-si isə növbəti ilə qalmışdır.

2016-cı ildə 267 şəxs barəsində 229 cinayət işi (2 iş təkrarla) ittiham aktları ilə baxılması üçün məhkəmələrə göndərilmişdir ki, bu da keçən il məhkəmələrə göndərilmiş cinayət işləri ilə müqayisədə 15 cinayət işi və ya 7 % artıqdır.

2016-cı ildə Dövlət Gömrük Komitəsi tərəfindən məhkəmələrə göndərilmiş 1 cinayət işi üzrə təqsirləndirilən şəxslərdən biri barəsində bəraət hökmü çıxarılmış, 2 cinayət işi isə məhkəmə tərəfindən əlavə istintaq aparılması üçün istintaq orqanına qaytarılmış, zəruri istintaq hərəkətləri aparıldıqdan sonra həmin işlər baxılması üçün məhkəmələrə göndərilmişdir.

2016-cı ilin yanvar-dekabr ayları ərzində Dövlət Gömrük Komitəsinin İstintaq İdarəsi tərəfindən istintaqı tamamlanmış cinayət işləri üzrə 269 nəfər təqsirləndirilən şəxs qismində cəlb edilmiş, təqsirləndirilən şəxslərdən 145 nəfəri barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri, qalan 124 nəfəri barəsində isə istintaq orqanı tərəfindən həbslə bağlı olmayan digər qətimkan tədbirləri seçilmişdir.

İstintaqı tamamlanmış cinayət işləri üzrə məsuliyyətə cəlb edilmiş şəxslərdən 21 nəfər İran İslam Respublikasının, 4 nəfər Rusiya Federasiyasının, 1 nəfər Türkiyə Respublikasının, 1 nəfər Ukrayna Respublikasının, 1 nəfər Qazaxıstan Respublikasının, 1 nəfər Belarus Respublikasının, 1 nəfər Hindistan Respublikasının 236 nəfəri isə Azərbaycan Respublikasının vətəndaşları olmuşdur.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 20 nəfəri qadın olmuşdur ki, bunların da 18 nəfəri Azərbaycan Respublikasının, 2 nəfər isə Rusiya Federasiyasının vətəndaşlarıdır.

## VII. İnformasiya texnologiyalarının və proqram təminatlarının tətbiqi

Hesabat dövründə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzdində Sanitariya-Karantin Müfəttişliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin yanında Dövlət Baytarlıq və Dövlət Fitosanitar Nəzarəti Xidmətləri, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi, Dövlət Dəniz Administrasiyası və Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi arasında Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) vasitəsi ilə məlumat mübadiləsinin həyata keçirilməsi təmin edilmişdir. Həmçinin, “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi (İAMAS) və Azərbaycan Respublikasının Vergilər Nazirliyinin informasiya sistemi ilə məlumat mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi tərəfindən təqdim olunmuş qeyri-hökumət təşkilatlarının siyahısına daxil olan təşkilatların cari dövr üzrə

idxal-ixrac əməliyyatları haqqında məlumatlar “Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 2013-cü il tarixli 3003 saylı Fərmanına uyğun olaraq yaradılmış “Fərdi elektron pəncərə” məlumat sisteminə daxil edilmişdir.

14 mart 2016-cı ildə “Fairmont Baku” otelində Azərbaycanda Amerika Ticarət Palatası və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin birgə təşkil etdiyi “Gömrük sistemində inkişaf və gələcək perspektivlər” mövzusunda keçirilən konfransda, 30 mart 2016-cı ildə Azərbaycan Türk Sənayeçi və İş adamları Beynəlxalq Cəmiyyətinin (TÜSİAB) Bakı şəhərindəki ofisində Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə iş adamları arasında “Gömrük islahatları:yeniliklər və perspektivlər” mövzusunda keçirilən görüşdə, 31 may 2016-cı ildə “Hyatt Regency” otelinin “Quba” zalında Azərbaycanda Amerika Ticarət Palatasının (AMCHAM) Dövlət Gömrük Komitəsi rəhbərliyinin iştirakı ilə növbəti aylıq toplantısında və 21 sentyabr 2016-cı ildə “Holiday İnn Baku” otelində Xəzər-Avropa Klubunun təşkilatçılığı ilə Dövlət Gömrük Komitəsi rəhbərliyi və Klubun üzvü olan şirkətlərin nümayəndələri arasında keçirilən görüşdə gömrük xidmətində aparılan yeniliklərdən, innovasiya texnologiyalarının tətbiqindən bəhs edilmiş, elektron gömrük xidmətlərinin təqdimatı keçirilmişdir.

Bakı Baş Gömrük İdarəsinin, Enerji Gömrük İdarəsinin və Baş Gömrük Mühafizə Xidmətinin yeni inzibati binalara köçürülmələri ilə əlaqədar həmin inzibati binalarda kommunikasiya xətləri çəkilmiş, lokal şəbəkələr qurulmuş, Komitənin korporativ şəbəkəsinə qoşulmuş və təhlükəsizlik tədbirləri həyata keçirilmişdir.

Bakı Baş Gömrük İdarəsinin Beynəlxalq Dəniz Ticarət Limanı (köhnə) gömrük postu fiber optik xəttlə Komitənin korporativ şəbəkəsinə qoşulmuşdur.

Gömrük xidmətinin alternativ “Data Mərkəz”i yaradılaraq 1Gbit sürətli fiberoptik rabitə kanalı vasitəsi ilə ümumi sistemə qoşulması təmin edilmişdir.

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Zeynalabdin gömrük postunda lokal şəbəkə qurulmuş və VPN üzərindən gömrük xidmətinin korporativ şəbəkəsinə qoşulması təmin edilmişdir.

Gömrük rəsmiləşdirilməsində şəffaflığın təmin edilməsi, bəyanetmə prosesinin asanlaşdırılması və gömrük əməkdaşı ilə vətəndaşların təmasının minimuma endirilməsi məqsədilə malların və nəqliyyat vasitələrininin kağızsız texnologiya əsasında internet üzərindən bəyan edilməsinə imkan verən “e-Gömrük Bəyannaməsi/Mal - Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron Gömrük Bəyannaməsinin qəbulu” elektron gömrük xidməti xarici iqtisadi fəaliyyət iştirakçılarının istifadəsinə verilmişdir.

“Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1853 nömrəli 4 mart 2016-cı il tarixli sərəncamının 2.1-ci və 2.2-ci bəndlərinin icrasını təmin etmək məqsədilə “Gömrük bəyannamələri haqqında məlumatın verilməsi” elektron gömrük xidməti istismara verilmişdir.

Eyni zamanda xarici iqtisadi fəaliyyət iştirakçılarına idxal etdikləri malların ölkə ərazisinə daxil olması haqqında operativ məlumat əldə etmələrini təmin edən “Sərhəd gömrük məntəqələrindən daxil olan mallarım haqqında məlumat” elektron gömrük xidməti istifadəyə verilmişdir.

“Mənim idxal-ixrac əməliyyatlarım” elektron gömrük xidməti təkmilləşdirilmiş, xidmətə daha iki hesabat forması əlavə edilmiş, sərhəd buraxılış məntəqələrində VAİS-in dayanıqlılığının təmin edilməsi üçün “Off Line” serverlər quraşdırılaraq istismara verilmişdir.

Ümumdünya Gömrük Təşkilatının “Malların buraxılış vaxtının ölçülməsi üzrə Təlimat”ında təsbit olunmuş metodologiya əsasında hazırlanmış Azərbaycan Respublikasının gömrük sərhəd buraxılış məntəqələrində “Sərhədkeçmə vaxtının ölçülməsi (TRS)” layihəsi Naxçıvan Dövlət Gömrük Komitəsinin Sədərək və Culfa Gömrük İdarələrində tətbiq edilmişdir.

Dövlət Gömrük Komitəsinin aparatında, strukturuna daxil olan gömrük orqanlarında və tabeliyində olan digər qurumlarında istifadədə olan kompüter, telefon, audio-video və digər elektron avadanlıqların fasiləsiz və normal işləməsi təmin edilmişdir.

Qeyd olunanlarla yanaşı İAMAS-ın imkanlarından istifadə etməklə şəxslər tərəfindən ölkə ərazisinə müvəqqəti gətirilən və ya bu ərazidən müvəqqəti aparılan mal və ya nəqliyyat vasitələrinin geri qaytarılmasına effektiv gömrük nəzarətinin həyata keçirilməsini təmin edən "Sərhədkeçmədə xüsusi diqqət siyahısı" altsistemi yaradılaraq istismara verilmişdir.

VAİS-Risk” risklərin idarə edilməsi altsistemi yenidən işlənilmiş və VAİS-ə inteqrasiyası təmin edilmiş, sənədlərin “ASAN İmza” ilə imzalanmasını təmin edən modul işlənərək VAİS-in gömrük rəsmiləşdirilməsi və nəzarəti altsisteminə inteqrasiyası təmin edilmişdir.

VAİS-in gömrük rəsmiləşdirilməsi və nəzarəti altsistemi (VAIS-GB) kağızsız texnologiya əsasında yenidən işlənilmiş, məlumat mübadiləsinin, texnoloji proseslərin və ödənişlərin kağızsız texnologiya əsasında həyata keçirilməsi, yalnız bəyannaməçinin elektron imzası ilə təsdiq edilmiş gömrük bəyannamələrinin altsistem tərəfindən qəbul edilməsi təmin edilmişdir.

Şəxslər tərəfindən mobil telefon vasitəsi ilə gömrük sərhədindən keçirəcəkləri nəqliyyat vasitələri haqqında ilkin məlumatların VAİS-ə ötürülməsi altsistemi hazırlanaraq istifadəyə verilmişdir.

Hüquqpozma faktları zamanı aşkar olunan hüquqpozma predmetlərinin saxlanılmasına və hərəkətinə nəzarət altsistemi işlənilmiş, VAİS-ə inteqrasiya edilmiş və tətbiqinə başlanılmışdır.

Materialların və cinayət işlərinin qeydiyyatı “VAİS-İstintaq” altsistemi yaradılmış və pilot variantda tətbiq edilmişdir.

Poçtla daşınan mallara gömrük nəzarətinin səmərəliliyinin artırılması və sui-istifadənin qarşısının alınması məqsədi ilə “VAİS-Poçt daşımaları” altsistemində təkmilləşdirmələr aparılmış, daşıyıcı şirkətlər tərəfindən gömrük orqanlarına ötürülməli olan informasiyalar siyahısına alıcının şəxsiyyət vəsiqəsinin nömrəsi əlavə edilmiş, eyni zamanda şəxslər tərəfindən bir ay ərzində gətirilən malların ümumi dəyəri 1000 ABŞ dollarından yuxarı olduqda sistem tərəfindən qırmızı rənglə rəsmiləşdirməni aparan gömrük əməkdaşının xəbərdar edilməsi təmin edilmişdir.

Gömrük mədaxil orderləri ilə rəsmiləşdirilmənin ləğv edilməsi ilə əlaqədar “VAİS-GMO” altsisteminin fəaliyyəti dayandırılmış, “VAİS-SB” sərnişinlər tərəfindən mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi altsistemi yenidən işlənmiş, rüsum və yığımlar bloku əlavə edilmişdir.

“VAİS-İnventarların idarə edilməsi” altsistemi yenidən işlənmiş və VAİS-ə inteqrasiyası təmin edilmişdir. Altsistem vasitəsi ilə alınan bütün inventarlar aid olduqları mal tiplərinə uyğun anbarda yerləşdirilir, anbardan istifadə üçün gömrük əməkdaşlarının istifadəsinə verilir və əməkdaşlardan anbara qəbul edilir. İnventarların hərəkətinə tam nəzarət təmin edilmişdir.

“VAİS-İmtahan” altsistemi hazırlanmış və “VAİS-Kadr” altsisteminə inteqrasiya edilmişdir.

“Elektron Sənəd Dövriyyəsi” avtomatlaşdırılmış idarəetmə sistemində təkmilləşdirmələr aparılmış, elektron poçta daxil olan müraciətlərin avtomatik olaraq komitənin sənəd dövriyyəsinə daxil edilməsi təmin edilmiş, sənəd dövriyyəsi tərkibində xarici ölkələrlə bağlanmış müqavilə və protokollar bazası yaradılmışdır.

Şəffaflığın təmin edilməsi və korrupsiya hallarına yol verilməməsi məqsədi ilə sərhəd gömrük orqanlarında gömrük ödənişlərinin poçt vasitəsilə həyata keçirilməsini təmin edən altsistem hazırlanaraq istismara verilmiş, aidiyyəti poçt şöbələri ilə informasiya mübadiləsi təmin edilmişdir.

Elektron Hökumət prinsipləri, ən yaxşı beynəlxalq təcrübə və texniki standartlar nəzərə alınmaqla Dövlət Gömrük Komitəsinin internet saytı yenidən işlənilmişdir.

Hesabat dövründə "Gömrük rəsmiləşdirilməsi üçün müraciət" üçün 20196, "e-İlkin Məlumatlandırma" üçün 1255, "e-Gömrük Bəyannaməsi/Sərnişin" üçün 469949, "e-idxal/ixrac Əməliyyatlarım" üçün 27805, "e-Gömrük Ekspertizası" üçün 310, "Vətəndaş müraciətləri, sorğu və şikayətlər" üçün 898, "e-GÖÖEN Gömrük ödənişlərinin ödəyicisinin eyniləşdirmə nömrəsinin alınması" üçün 9413, "Gömrük orqanlarına xidmətə qəbul" üçün 612 və "e-Gömrük Ödənişləri" üçün 710360, "Gömrük bəyannamələri haqqında məlumatın verilməsi" üçün 48852, "e-Gömrük Bəyannaməsi/Mal" üçün 312992, "sərhəd gömrük məntəqələrindən daxil olan mallarım haqqında məlumat" üçün 8679 müraciət daxil olmuşdur.

## VIII. Beynəlxalq əməkdaşlıq

2016-cı il ərzində Dövlət Gömrük Komitəsində "İcra intizamının möhkəmləndirilməsi və icraya nəzarətin təşkilinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 472 nömrəli 26 sentyabr 2006-cı il tarixli Fərmanında nəzərdə tutulmuş tapşırıqların icrası, həmçinin Gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının gömrük siyasətinin formalaşdırılması, gömrük işi sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində məqsədyönlü iş aparılmışdır.

Gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və genişləndirilməsi məqsədilə, Komitə tərəfindən digər ölkələrin gömrük orqanları ilə beynəlxalq normalara uyğun saziş, protokol və aidiyyəti sənədlər hazırlanmış və digər zəruri tədbirlər görülmüşdür.

Belə ki, 23 fevral 2016-cı il tarixdə İran İslam Respublikasının Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti ilə İran İslam Respublikasının Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı inzibati yardım haqqında Saziş"in 6-cı maddəsinə müvafiq olaraq, 19 oktyabr 2016-cı il tarixdə Tehran şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə İran İslam Respublikası Gömrük İdarəsi arasında "Məlumat mübadiləsi sistemi" üzrə Texniki Təminat Sənədi imzalanmışdır.

- 8 mart 2016-cı il tarixdə Bakı şəhərində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qətər Dövləti Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır və Azərbaycan Respublikası Prezidentinin 28 aprel 2016-cı il tarixli 884 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
- 18 may 2016-cı il tarixdə Dakar şəhərində "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Seneqal Respublikasının Baş Gömrük İdarəsi arasında gömrük əməkdaşlarının potensialının gücləndirilməsi sahəsində qarşılıqlı yardım haqqında Saziş" imzalanmış və gömrük sahəsində qarşılıqlı fəaliyyətin həyata keçirilməsi məsələləri nəzərdə tutulmuşdur.
- 14 iyul 2016-cı il tarixdə Bakı şəhərində i "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Ukrayna Dövlət Fiskal Xidməti arasında malların hava nəqliyyatı ilə daşınmasına

dair gömrük hüquqpozmaları ilə mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol" imzalanmışdır.

- 28 noyabr 2016-cı il tarixdə Bakı şəhərində "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Belarus Respublikasının Dövlət Gömrük Komitəsi arasında malların hava nəqliyyatı ilə daşınmasına dair gömrük hüquqpozmaları ilə mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol" imzalanmışdır.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 373 nömrəli 19 yanvar 2011-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması və ya ləğv edilməsi haqqında təkliflərin mərkəzi icra hakimiyyəti orqanları və dövlətə məxsus müəssisələr tərəfindən verilməsi Qaydaları"na əsasən "Azərbaycan Respublikası Hökuməti və Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım barədə Saziş" və "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında cinayət yolu ilə əldə edilən gəlirlərin leqallaşdırılmasının (yuyulmasının) və fiziki şəxslər tərəfindən nağd pul vəsaitləri və (yaxud) pul alətlərinin transsərhəd keçirilməsi zamanı terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində informasiya əməkdaşlığı haqqında Saziş" layihələrinin mətnləri aidiyyəti dövlət strukturları ilə razılaşdırmaq üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur.

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında dövlət sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Protokol", "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsi ilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında Saziş" imzalanma üçün hazırlanmışdır.

Həmçinin, 7 iyul 2005-ci il tarixdə İstanbul şəhərində imzalanmış "Qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına dair İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) məlumat bazasının yaradılması və fəaliyyəti barədə Saziş" ratifikasiya məsələsinə baxılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir.

"Azərbaycan Respublikasının Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında avtomobil yolu ilə tranzit daşımalar haqqında məlumatların ilkin elektron mübadiləsi sisteminin yaradılmasına dair Saziş" layihəsinin respublikanın aidiyyəti dövlət strukturları ilə razılaşdırılmış mətnin müzakirəsi məqsədilə 31 oktyabr-1 noyabr 2016-cı il tarixdə Ankara şəhərində Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyində görüş keçirilmişdir. Görüşdə Komitə nümayəndələri iştirak etmiş və adıçəkilən sənəd layihəsinə dair təkliflərlə bağlı fikir mübadiləsi aparılmışdır. Adıçəkilən Saziş layihəsinin son mətni hazırda Türkiyə tərəfində baxılmaqdadır.

Qeyd olunanlarla yanaşı, "Azərbaycan Respublikası Hökuməti və Braziliya Federativ Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı inzibati yardım haqqında Saziş" layihəsinin Braziliya tərəfindən təqdim edilmiş mətninin imzalanma üçün məqbul hesab edilməsi barədə qarşı tərəfin məlumatlandırılması məqsədilə, "Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında gömrük keçid məntəqələrində gömrük prosedurları ilə bağlı məlumat mübadiləsi üzrə Birgə Məşvərət Komissiyasının yaradılmasına dair Anlaşma Memorandumu" layihəsinin aidiyyəti dövlət strukturlarından alınmış rəy və təkliflər nəzərə alınmaqla Dövlət Gömrük Komitəsində ümumiləşdirilmiş mətni isə qarşı tərəflərə təqdim olunması üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə göndərilmişdir.

“Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan dövlətlərin gömrük xidmətləri arasında dövlət sərhədlərindən keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Protokol” layihəsi Azərbaycan dilinə tərcümə olunaraq Komitənin aidiyyəti struktur bölmələri tərəfindən təhlil edilmişdir. Adıçəkilən Protokol layihəsi TDƏŞ üzv dövlətlərinin gömrük xidmətləri tərəfindən baxılmaqdadır.

2016-cı il ərzində Dövlət Gömrük Komitəsi tərəfindən bir neçə regional və beynəlxalq səviyyəli tədbirlər hazırlanmış və keçirilmişdir.

Belə ki, 26-28 yanvar 2016-cı il tarixdə Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Bakı şəhərində yerləşən Avropa Regional Ofisində Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsi tərəfindən təşkil olunan Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Ali Neft Məktəbinin tələbələrinin iştirakı ilə seminar keçirilmişdir.

- 15-17 fevral 2016-cı il tarixdə Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Regional Tədris Mərkəzində Ümumdünya Gömrük Təşkilatı tərəfindən təşkil olunan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Dövlət Mülki Aviasiya Administrasiyası və Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşlarının iştirakı ilə seminar keçirilmişdir.

- 15-19 fevral 2016-cı il tarixdə Dövlət Gömrük Komitəsinin Avtonəqliyyat Baş Gömrük İdarəsində “Gömrük orqanlarında risklərin idarə olunması” mövzusunda seminar keçirilmişdir.

- 4-7 aprel 2016-cı il tarixdə Ümumdünya Gömrük Təşkilatının Bakıda yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində “Şərqi Avropa, Mərkəzi Asiya və Qafqaz ölkələrinin təyin olunmuş operatorları üçün seminar keçirilmişdir.

- 7-8 aprel 2016-cı il tarixdə Excelsior hotelində ölkəmizdə fəaliyyət göstərən gömrük təmsilçiləri üçün “Avropa İttifaqının TAİEX aləti çərçivəsində gömrük təmsilçiliyi sisteminin funksiyalaşdırılması” mövzusunda seminar keçirilmişdir.

- 25-28 aprel 2016-cı il tarixdə Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Regional Ofisində “Harmonik sistem 2017-yə dəyişikliklər” üzrə Ümumdünya Gömrük Təşkilatının regional seminarı keçirilmişdir.

- 5 may 2016-cı il tarixdə Fairmont Baku hotelində Avropa İttifaqının maliyyə dəstəyi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə birgə icra etdiyi “Azərbaycan və Gürcüstan arasında “Qırmızı körpü” sərhəd-keçid məntəqəsinin inkişafına dəstək” layihəsinin təqdimatı keçirilmişdir.

- 11 may 2016-cı il tarixdə Bakıda “İmperial Tobacco” şirkətinin təşkilatçılığı ilə Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün “Tütün məmulatlarının qanunsuz dövriyyəsi ilə mübarizə” mövzusunda seminar keçirilmişdir.

- 10-12 may 2016-cı il tarixdə Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Bakı şəhərindəki Regional Ofisində Avropa İttifaqının TAİEX Proqramı çərçivəsində “Səlahiyyətli İqtisadi Operator” mövzusunda Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün seminar keçirilmişdir.

- 31 may 2016-cı il tarixdə Bakı Ali Neft Məktəbinin, Dövlət Gömrük Komitəsinin Akademiyasının və Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsinin Bakı Regional Ofisinin birgə təşkilatçılığı Bakı Ali Neft Məktəbində “Multisektoral əməkdaşlıq: müasir dövrdə iqtisadiyyatın inkişafında gömrük xidmətinin rolu” mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

- 2-3 iyun 2016-cı il tarixdə Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Bakı şəhərindəki Regional Ofisində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Gömrük

Əməkdaşlığı üzrə İşçi Qrupunun 7-ci və Gömrük İdarələri Rəhbərlərinin 5-ci iclasları keçirilmişdir.

- 29 iyun-1 iyul 2016-cı il tarixdə Qəbələ şəhərində Azərbaycan da daxil olmaqla Avstriya, Belarus, Belçika, Bolqarıstan, Çin, Makedoniya, Gürcüstan, Almaniya, Macarıstan, Litva, Niderland Krallığı, Polşa, Rusiya Federasiyası, Seneqal, İsveç, Türkiyə, Ukrayna, Amerika Birləşmiş Ştatları, Özbəkistan və Vyetnamın mötəbər universitetlərində gömrük ixtisası üzrə təhsil alan tələbələrin, gömrük sahəsində ixtisaslaşan elm adamları, eləcə də dünyaca məşhur gömrük mütəxəssislərinin iştirakı ilə "Gənclərin dialoqu - gömrük əməkdaşlığının genişləndirilməsi yolu ilə potensialın artırılması" mövzusunda Beynəlxalq Tələbə Konfransı keçirilmişdir.

- 19-20 sentyabr 2016-cı il tarixdə Hava Nəqliyyatında Baş Gömrük İdarəsində Rusiya Federasiyası Federal Gömrük Xidmətinin "Domodedovo" Hava Limanı Gömrük İdarəsinin əməkdaşları ilə işçi görüş keçirilmişdir.

- 19-29 sentyabr 2016-cı il tarixlərdə Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Əfqanıstanlı gömrükçülər və bu ölkənin digər sərhəd qurumlarının nümayəndələri üçün Ümumdünya Gömrük Təşkilatının mütəxəssisləri tərəfindən ticarətin asanlaşdırılması istiqamətində həyata keçirilən işlərə dair, 3-7 oktyabr 2016-cı il tarixində isə Dövlət Gömrük Komitəsinin dəstəyilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan gömrük xidmətlərinin nümayəndələrinin iştirakı ilə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və ÜGT-nin birgə layihəsi olan "Konteyner Daşınmalarına Nəzarət üzrə Qlobal Proqram" layihəsi çərçivəsində təşkil olunmuş Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Kontrafaktlıq və piratçılığa qarşı mübarizə" mövzusunda seminarlar keçirilmişdir.

- 18 oktyabr 2016-cı il tarixdə Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin 5 illik yubileyi və ÜGT-nin Konteyner və Karqo üzrə Təlim Mərkəzinin açılışı münasibətilə millət vəkili, Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə, Azərbaycanda səfərdə olan Seneqal Respublikası Baş Gömrük İdarəsinin Baş direktoru Papa Ousmane Gueyenin rəhbərlik etdiyi nümayəndə heyəti, iş adamları və Azərbaycandakı diplomatik korpusun nümayəndələri, həmçinin ÜGT-nin Avropa Regionu üzrə sədr müavininin nümayəndəsi Peter Adamec, Macarıstan Gömrük Xidmətinin nümayəndəsi Gabor Hoka və BMT-nin Narkotiklərə Qarşı Milli Təbliğat Ofisinin rəhbəri Məzahir Əfəndiyev iştirak ilə mərasim keçirilmişdir.

- 22-25 noyabr 2016-cı il tarixdə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində ÜGT-nin akkreditasiyadan keçmiş gömrük ekspertləri üçün Azərbaycan, Rusiya və Niderland gömrük xidmətlərinin əməkdaşlarının iştirakı ilə ixtisasın artırılması seminarı, 28 noyabr - 1 dekabr 2016-cı il tarixdə isə Ümumdünya Gömrük Təşkilatının təşkilatçılığı ilə Koreya Gömrük Əməkdaşlıq Fondu, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin dəstəyi ilə ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Elektron Ticarət və Rəqəmsal Gömrük" mövzusunda 18 dövlətin gömrük xidmətinin nümayəndələrinin iştirakı ilə regional seminarlar keçirilmişdir.

- 7-8 dekabr 2016-cı il tarixdə Azərbaycan, Əfqanıstan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Çin, Tacikistan, Türkmənistan və Özbəkistan gömrük orqanlarının, eləcə də MARİƏ (Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı) ölkələri Daşıyıcılar və Ekspeditorlar Assosiasiyaları Federasiyasının və digər ozəl təşkilatların (həmçinin

sığorta şirkətləri) nümayəndələrinin iştirakı ilə Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Bakı şəhərində yerləşən Avropa Regional Ofisində Asiya İnkişaf Bankı tərəfindən MARİƏ çərçivəsində Regional Tranzit Ticarətinin Sadələşdirilməsi mövzusunda seminar keçirilmişdir.

Bunlarla yanaşı hesabat ilində, Azərbaycan Respublikası gömrük xidmətinin yaradılmasının 25 illik yubileyi ilə bağlı 27 yanvar 2017-ci il tarixdə Dövlət Gömrük Komitəsi və Azərbaycan Dövlət İqtisad Universitetinin birgə təşkilatçılığı ilə "İqtisadi təhlükəsizlik – Ticarətin sadələşdirilməsi və onun təhlükəsizliyinin təmin edilməsi aspektləri" mövzusunda keçiriləcək Beynəlxalq Elmi-Praktiki Konfransla bağlı müvafiq işlər görülmüşdür.

Qeyd edilənlərlə yanaşı hesabat dövründə Dövlət Gömrük Komitəsində bir sıra ikitərəfli görüşlər təşkil edilmişdir.

Belə ki, 27 yanvar 2016-cı il tarixdə Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İmre Laslotski, 2 fevral 2016-cı il tarixdə Birləşmiş Millətlər Təşkilatının baş katibinin müavini, BMT-nin Asiya və Sakit Okean regionu üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibi Şamşad Axtarın rəhbərlik etdiyi nümayəndə heyəti, 12 fevral 2016-cı il tarixdə Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-gyunun başçılıq etdiyi nümayəndə heyəti, 30 mart 2016-cı il tarixdə Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Xuan Rodrigo Labardini Flores, 11 aprel 2016-cı il tarixdə Türkiyə Respublikasının Gömrük və Ticarət Nazirliyinin müstəşar müavini Rəmzi Akçinin rəhbərlik etdiyi nümayəndə heyəti, 24 iyun 2016-cı il tarixdə Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İsakzainin rəhbərlik etdiyi nümayəndə heyəti, TÜSİAB İdarə Heyətinin sədri Cəlil Polatın rəhbərlik etdiyi nümayəndə heyəti və Moldova Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri George Leuk, 4 iyul 2016-cı il tarixdə Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxin, 15 sentyabr 2016-cı il tarixdə Birləşmiş Millətlər Təşkilatının və Avropa İttifaqının Azərbaycandakı nümayəndəliklərinin rəhbər heyətləri, 19 sentyabr 2016-cı il tarixdə Əfqanıstan İslam Respublikası Gömrük Departamentinin Baş direktoru Əhməd Rəşad Popal, 20 sentyabr 2016-cı il tarixdə Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə direktor müavini xanım Brenda Mundia və ÜGT-nin Ticarətin sadələşdirilməsinin tətbiqi proqramının koordinatoru xanım Johanna Torstrom, 4 oktyabr 2016-cı il tarixdə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsinin Mərkəzi Asiya üzrə Regional Ofisinin rəhbəri xanım Aşita Mittalın rəhbərlik etdiyi nümayəndə heyəti, 18 oktyabr 2016-cı il tarixdə Seneqal Respublikası Baş Gömrük İdarəsinin Baş direktoru Papa Ousmane Gueyenin rəhbərlik etdiyi nümayəndə heyəti, 31 oktyabr 2016-cı il tarixdə Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrab, 1 noyabr 2016-cı il tarixdə ölkəmizdə səfərdə olan Ukrayna Dövlət Fiskal Xidmətinin sədr müavini, Gömrük Xidməti rəhbərinin səlahiyyətlərini icra edən Miroslav Prodanın rəhbərlik etdiyi nümayəndə heyəti, 2 noyabr 2016-cı il tarixdə Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, 16 noyabr 2016-cı il tarixdə İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə, 22 noyabr 2016-cı il tarixdə Estoniya Vergi və Gömrük İdarəsinin baş direktoru Marek Helm ilə Komitə rəhbərliyinin görüşləri keçirilmişdir.

1 fevral 2016-cı il tarixdə İran İslam Respublikasının Gömrük İdarəsinin Culfa gömrük keçid məntəqəsində, 2 fevral 2016-cı il tarixdə isə Azərbaycan Respublikasının Naxçıvan

Muxtar Respublikasının Dövlət Gömrük Komitəsində Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında ikitərəfli görüşlər keçirilmişdir.

2016-cı il ərzində Dövlət Gömrük Komitəsi tərəfindən yuxarıda qeyd olunanlarla yanaşı bir sıra digər regional və beynəlxalq səviyyəli tədbirlər təşkil edilmiş və Komitənin səlahiyyətli nümayəndələrinin iştirakı təmin edilmişdir.

## IX. Kadr məsələləri, peşəkarlığın artırılması və tibbi xidmətin göstərilməsi

Hesabat ilində kadrların seçimi və yerləşdirilməsi ilə əlaqədar müvafiq işlər görülmüşdür.

Belə ki, Komitənin internet saytı vasitəsi ilə gömrük xidmətinə işə qəbul üzrə ərizələrin qəbulu, ərizəçilərin məlumatlandırılması və gömrük xidmətinə qəbulu üzrə test imtahan sistemi təkmilləşdirilmiş və “Kadrların idarə edilməsi” altsistemi ilə inteqrasiyası təmin edilmişdir. Sistemin test bankının “İnformasiya texnologiyaları” və “Ümumi hissə və əlavə blok” bölmələrinə yeni test sualları əlavə olunmuşdur.

2016-cı ildə 141 nəfər işə qəbul edilmiş, 148 nəfər əməkdaş isə işdən azad edilmişdir. Eyni zamanda, 227 nəfər tutduğu vəzifədən daha yüksək vəzifəyə təyin edilmiş, 22 nəfər isə tutduğu vəzifədən daha aşağı vəzifəyə təyin olunmuşlar.

Hesabat dövründə müraciətlər əsasında təşkil olunmuş test imtahanlarında 403 nəfər vətəndaş iştirak etmiş, təsdiq olunmuş qaydalara uyğun olaraq, daha yüksək bal toplayanlar növbəti müsabiqə mərhələsinə buraxılmış, müsabiqədən keçənlər aidiyyəti üzrə vakant iş yerlərinə təyin olunmuşdur.

2016-cı ildə Dövlət Gömrük Komitəsinin Akademiyasında yeni işə qəbul edilmiş 67 nəfər gömrük əməkdaşına gömrük işi tədris edilmişdir.

2016-2017-ci tədris ilində Dövlət Gömrük Komitəsinin Akademiyasına 43 nəfər tələbə qəbul olunmuş, onlardan 16 nəfəri dövlət sifarişi (iqtisadiyyat ixtisası üzrə), 27 nəfəri isə ödənişli əsaslarla (hüquqşünaslıq ixtisası üzrə) təhsil alırlar. Hal-hazırda Dövlət Gömrük Komitəsinin Akademiyasında ümumilikdə bakalavr səviyyəsi üzrə 126 tələbə təhsil alır.

Hesabat dövrü ərzində 6 nəfər gömrük əməkdaşı Rusiya Gömrük Akademiyasında təhsilini davam etdirmiş və 3 nəfər gömrük əməkdaşı isə adı çəkilən Akademiyaya qəbul olunmuşdur.

2016-cı ildə xarici dövlətlərin və beynəlxalq təşkilatların dəstəyi ilə Bakı şəhərində və dünyanın bir çox ölkələrində keçirilmiş forum, konfrans, təlim, seminar, kurs və digər mühüm peşəkarlığın artırılması yönümlü tədbirlərdə Dövlət Gömrük Komitəsinin və onun struktuna daxil olan gömrük orqanlarının əməkdaşları iştirak etmişlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət və qayğısı ilə əhatə olunmuş gömrük əməkdaşları hesabat ilində də ölkə başçısının müvafiq Sərəncamlarına əsasən 1 nəfər 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə, 2 nəfər 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə, 8 nəfər “Dövlət qulluğunda fərqlənməyə görə” medal ilə təltif olunmuşdur.

Hesabat ilində xidmətdə qazandıqları nailiyyətlərə və xidməti vəzifələrini yerinə yetirərkən yüksək operativlik və sayıqlıq göstərdiklərinə görə, eyni zamanda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 24-cü il dönümü və gömrük əməkdaşlarının peşə bayramı münasibətilə gömrük əməkdaşlarından 151 nəfər Fəxri Fərman ilə təltif edilmiş, gömrük orqanlarında qüsursuz xidmətə görə 107 nəfər gömrük əməkdaşı döş nişanları ilə, 4 nəfər gömrük əməkdaşı "Gömrük xidməti əlaçısı" döş nişanları ilə təltif edilmiş, 108 nəfərə

xüsusi rütbələr verilmiş, 12 nəfər əməkdaşa verilən intizam tənbehi üzərindən götürülmüş, 127 nəfər əməkdaşa təşəkkür elan edilmişdir.

Hesabat dövründə aparılan araşdırmalar nəticəsində müəyyən edilmiş xidməti pozuntulara yol verdiklərinə görə 225 nəfər gömrük əməkdaşı intizam məsuliyyətinə cəlb olunmuşdur. Bunlardan 10 nəfər gömrük orqanlarından xaric edilmiş, 3 nəfər tutduğu vəzifədən azad edilmiş, 2 nəfər aşağı vəzifəyə keçirilmiş, 20 nəfərin xüsusi rütbəsi bir pillə aşağı salınmış, 62 nəfərə sonuncu xəbərdarlıqla şiddətli töhmət elan edilmiş, 95 nəfərə töhmət elan edilmiş, 33 nəfərə isə irad tutulmuşdur.

Hesabat dövründə Tibbi Xidmət İdarəsinin Mərkəzi Gömrük Hospitalında müayinə və müalicə işləri aparılmış və bu proses daima nəzarət altında saxlanılmışdır.

Hospitalın bütün şöbə və bölmələrinin fəaliyyəti zamanı müraciət edən hər bir şəxsə qayğı ilə yanaşılmış, uyğun mütəxəssisə göndərilməsi, istənilmiş müayinələrdən qısa zaman içərisində keçmələri, müalicə növündən asılı olmayaraq ən yüksək səviyyədə tibbi xidmət almaları təmin edilmişdir.

Hesabat ili ərzində Hospitalda aparılan cərrahi əməliyyatların çeşidi və sayı artmış, peşəkar həkimlərinin iştirakı ilə bir sıra ağır əməliyyatların icrasına başlanmışdır.

Hospitalda çalışan həkim heyəti daxilində elmi-tədqiqatla məşğul olanlar elmi araşdırmalarını davam etdirmiş, respublikamızın, eyni zamanda xarici ölkələrin tibb jurnallarında elmi məqalələr dərc edilmişdir. Hospitalda çalışan əməkdaşlardan 1 nəfəri elmi-tədqiqat işlərini bitirərək tibb üzrə fəlsəfə doktoru – alimlik elmi dərəcəsi almışdır. Hazırda Gömrük Hospitalında 1 nəfər proffessor və 28 nəfər tibb üzrə fəlsəfə doktoru xidmət göstərir.

## X. Dövlət orqanları və ictimaiyyətlə əlaqələr

Ötən müddət ərzində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, Azərbaycan Respublikasının Nazirlər Kabinetindən, Milli Məclisindən, hüquq mühafizə orqanlarından, nazirlik və komitələrdən, digər mərkəzi icra hakimiyyəti orqanlarından, xarici ölkələrdən, səfirliklərdən, beynəlxalq təşkilatlardan, hüquqi şəxslərdən, respublikanın gömrük orqanları və təşkilatlarından, həmçinin, vətəndaşlardan və əcnəbi vətəndaşlardan 29935 sənəd daxil olmuş və aidiyyəti üzrə 16858 sənəd xaric olmuşdur.

Hesabat dövründə Komitənin Katibliyi ilə birgə Dövlət Gömrük Komitəsində vətəndaşların qəbulunun texniki məsələlərinin həlli təmin edilmiş, «Vətəndaşların мüraciətləri haqqında» Azərbaycan Respublikasının 30 sentyabr 2015-ci il tarixli 1308-IVQ nömrəli Qanununa uyğun olaraq, ümumi şöbədə vətəndaşların komitəyə müraciətləri əlifba sırası ilə kompüterdə qeydiyyata alınmış, onlarla bağlı qeydiyyat-nəzarət vərəqələri tərtib olunmuş, müraciətlərin icrası xüsusi nəzarətə götürülmüşdür.

Aylıq olaraq xarici ticarəti əks etdirən məlumat bazası Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə, Mərkəzi Bankına, Vergilər Nazirliyinə, İqtisadiyyat Nazirliyinə təqdim olunmuş, 2016-ci il üzrə hər ayı idxal-ixrac əməliyyatları Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikasının metodologiyasına müvafiq olaraq təhlil edilmiş və Azərbaycan Respublikası Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, İqtisadiyyat Nazirliyinə təqdim olunmuşdur. Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası bülletenlərinin Komitənin internet saytında yerləşdirilmişdir.

2016-cı il ölkəmizin gömrük orqanlarının həyatında müstəqil gömrük orqanları yaradılmasının 24 illiyinin qeyd edilməsi ilə yadda qaldı. "Gömrük xəbərləri" qəzetində, eləcə də

respublikamızın digər kütləvi informasiya vasitələrində bu əlamətdar hadisə ilə əlaqədar keçirilmiş tədbirlər öz əksini tapmış, ötən illərdə, xüsusilə 1995-ci ildən etibarən Ümumdünya Gömrük Təşkilatında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin tutduğu mövqe, onun beynəlxalq təşkilatlara müvəffəqiyyətlə inteqrasiyasından bəhs edən materiallar dərc edilmişdir.

Ölkəmizin gömrük orqanlarının bütün istiqamətlərdə gördüyü işlər - istər fiskal siyasətin həyata keçirilməsində, istər hüquq-mühafizə orqanı kimi gömrük sahəsində hüquqpozmalara qarşı mübarizədə, mədəni sərvətlərin qorunmasında, istər gömrük nəzarətinin təşkilində, istərsə də Azərbaycan Gömrük Təşkilatının beynəlxalq imicinin möhkəmlənməsi, xidmət səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması və digər çoxşaxəli fəaliyyət Komitənin Mətbuat Xidməti tərəfindən ölkə ictimaiyyətinin diqqətinə çatdırılmışdır.

Hesabat dövründə fiziki şəxslər tərəfindən məktublar, teleqramlar, telefonoqramlar, həmçinin Komitənin rəsmi internet səhifəsi və 195 nömrəli “Çağrı Mərkəzi”i vasitəsi ilə daxil olan bütün müraciətlərə aidiyyəti üzrə cavablar verilmişdir.

Ötən dövr ərzində ölkəmizdə yaşayan xarici ölkə vətəndaşlarının - iş adamlarının, xarici ölkə nümayəndəliklərin maraqları nəzərə alınaraq "Gömrük xəbərləri" qəzetində materialların həm rus, həm də ingilis dillərində dərc edilməsi, ölkəmizin gömrük sistemində baş verən yeniliklərlə məlumatlandırılması təmin edilmişdir.

Azərbaycan Respublikası gömrük orqanlarının bütün istiqamətlərdə gördüyü işlər - istər fiskal siyasətin həyata keçirilməsində, istər hüquq-mühafizə orqanı kimi gömrük sahəsində hüquqpozmalara qarşı mübarizədə, mədəni sərvətlərin qorunmasında, gömrük nəzarətinin təşkilində, Azərbaycan gömrük orqanlarının beynəlxalq imicinin möhkəmlənməsi, xidmət səviyyəsinin dünya standartlarına uyğunlaşdırılması və digər çox şaxəli fəaliyyəti o cümlədən, analtik informasiya icmalı "Gömrük xəbərləri" və ölkənin digər kütləvi informasiya vasitələrində, eləcə də Komitənin rəsmi internet saytında işıqlandırılmışdır.